# QUBA-XAÇMAZ ZONASINDA KARTOF İSTEHSALININ ARTIRILMASININ ƏHƏMİYYƏTİ

**Zəkiyeva F.F.**

*Bakı Dövlət Universiteti*
*bahruyya.bagirova@gmail.com*

Quba-Xaçmaz zonası respublikanın simal-şərq hissəsində yerləşərək, respublikamızın əsas tərəvəzçilik zonalarından biri sayılır. Tədqiq olunan ərazidə orta illik temperatur 9,5-12,5$^{0}$C arasında dəyişir. Ən yüksək temperatur iyul-avqust aylarında müşahidə olunur. İllik yağıntıların miqdarı 342-527 mm arasında dəyişir. Ərazinin xeyli hissəsi vaxtı ilə meşə və kolluqlar ilə örtülü olmuşdur. Sonralar ərazinin çox hissəsində meşələr qırılmışdır. Hazırda bozqırlaşmış bu torpaqlardan tərəvəz bitkiləri altında istifadə olunur. Quba-Xaçmaz zonasında qəhvəyi-meşə, çəmən-meşə, qəhvəyi, dağ-çəmən və s. torpaqlar yayılmışdır. Zonanın torpaq-iqlim şəraiti ki, vahid sahədən yüksək aqrotexnikanın tətbiqi ilə yüksək və keyfiyyətli kartof məhsulunun alınsına imkan verir. Respublikanın rayonlarında kartof istehsalının ehtiyatlarından müxtəlif səviyyədə istifadə olunur. Bütün bunlar ölkədə kartof istehsalını artırmağın böyük əhəmiyyəti olduğunu göstərir.

Kartof yumrularının tərkibində 20,45% nişasta, 2% xam protein, 0,3% şəkər, 0,15%-ə yaxın yağ, 1,0% sellüloza (birləşdirici toxuma), 1,1% kül, həmçinin C, A, $B_1$, $B_2$, PP vitaminləri vardır. Kartof yumrularında insan və heyvan orqanizmində sintez olunmayan zülal maddələri vardır. Kartof heyvanların yem balansında xüsusi əhəmiyyətə malikdir. Belə ki, kartofun bir hektar əkin sahəsi qarğıdalıya nisbətən 1,2 dəfə, çuğundura nisbətən 1,6 dəfə, çovdara nisbətən 2,1 dəfə, vələmirə nisbətən 2,3 dəfə çox yem vahidi verir. Kartof yumrularının qiymətli ərzaq məhsulu olması ilə bərabər sənaye üçün xammaldır. Kartofdan spirt, qlükoza, kauçuk, nişasta və s. istehsal olunur.



**Şəkil 1. Quba-Xaçmaz zonasında kartof sahələri**

Kartof bitkisi mülayim hava şəraitində daha yaxşı böyüyür və inkişaf edir. Gözcüklər 3-6$^0$C temperaturda oyanır .Yumrular 7-12$^0$C temperaturda intensiv inkişaf edir və bu proses 20$^0$C temperaturda daha da sürətli gedir. Kartofun çiçək açması üçün 18-21$^0$C optimal hesab olunur.

Kartof yüksək məhsuldar bitki olduğu üçün torpaqdan çoxlu miqdarda qida maddələri aparır. Bu baxımdan kartof bitkisi becərilən ərazinin torpaqları qida maddələri ilə normal səviyyədə təmin olunmalı və gübrələmə sisteminə diqqət yetirilməlidir. Kartof, hektardan 300 s/ha (yaşıl kütlə ilə birlikdə) məhsul verdikdə, torpaqdan 150 kq azot, 60 kq fosfor, 240 kq kalium, 90 kq kalsium, 30 kq maqnezium, 250 q manqan aparır.